***Azərbaycanın görkəmli alim və mətbuat tədqiqatçısı, Ali Media Mükafatı laureatı, Prezident təqaüdçüsü, Bakı Dövlət Universitetinin mətbuat tarixi və ideoloji iş metodları kafedrasının professoru Şirməmməd Ağaməmməd oğlu Hüseynov 17 dekabr 1924-cü ildə Nuxada (Şəki) anadan olmuşdur.***

| | |
|---|---|
| **1940-cı il** | Nuxa şəhər 2 №-li orta məktəbi bitirib. |
| **1941–1943-cü illər** | Nuxa Dövlət Müəllimlər İnstitutunun fizika-riyaziyyat fakültəsinə daxil olub. |
| **1943–1944-ci illər** | Zaqatala rayonunun Varxian, Nuxa rayonunun Aşağı Göynük və Oxud kəndlərinin orta məktəblərində fizika-riyaziyyat müəllimi işləyib. |
| **1944-cü ilin iyun ayından 1945-ci ilin avqustuna qədər** | “Nuxa fəhləsi” qəzetində işləyib. |
| **1945-1950-ci illər** | S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsini bitirib. |
| **1947-ci ilin aprel ayından 1950-ci ilin sentyabr ayına qədər** | S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin “Lenin tərbiyəsi uğrunda” qəzetində redaktor müavini kimi fəaliyyət göstərib. |
| **1948-ci il** | “Nizami təqaüdü” mükafatına layiq görülmüşdür. |
| **1948 – 1950-ci illərdə** | “Azərbaycan müəllimi” qəzetində şöbə müdiri vəzifəsində çalışıb. |
| **1950–1954-cü illər** | M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Jurnalistika fakültəsinin aspiranturasında təhsilini davam etdirib. |
| **1954-cü ildə** | Moskva Dövlət Universitetinin Jurnalistika fakültəsində namizədlik dissertasiyası müdafiə edib. |
| **1954–1961-ci illər** | Bakı Dövlət Universitetinin Filologiya fakültəsi jurnalistika kafedrasının müəllimi, dosent vəzifələrində çalışıb. |
| **1962–1969-cu illər** | Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin dekan müavini vəzifəsində çalışıb. |

| | |
|---|---|
| **1961–1971-ci illər** | Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin Jurnalistikanın nəzəriyyə və təcrübəsi kafedrasının dosenti olub. |
| **1966-cı il** | “Qızıl qələm” mükafatını almışdır. |
| **1971–1976-cı illər** | Bakı Dövlət Universitetinin Jurnalistika fakültasinin dekanı vəzifəsində çalışıb. |
| **1971–1988-ci illər** | Bakı Dövlət Universitetinin Jurnalistika fakültasinin Mətbuat tarixi kafedrasının dosenti olmuşdur. |
| **1972-ci il** | “Qızıl qələm” mükafatını almışdır. |
| **1976–1988-ci illər** | Bakı Dövlət Universitetinin Jurnalistika fakültasinin Mətbuat tarixi kafedrasının müdiri vəzifəsində çalışmışdır. |
| **1988-ci il** | Bakı Dövlət Universitetinin Jurnalistika fakültasinin Mətbuat tarixi kafedrasının professoru olmuşdur,<br>“Azərbaycan SSR əməkdar jurnalisti" fəxri adını almışdır. |
| **1991-ci il** | Zərdabi adına mükafat almışdır. |
| **1992-ci il** | Y. Məmmədəliyev adına mükafatı almışdır. |
| **1992–2018-ci illər** | “Məhəmməd Əmin Rəsulzadə. Əsərləri” adlı 5 cildliyi toplayaraq ərəb əlifbasından latın əlifbasına çevirmişdir. |
| **1998-ci il** | Məhəmməd Əmin Rəsulzadə adına mükafatı almışdır. |
| **2000-ci il** | Parlament seçkilərində Şirməmməd Hüseynov Müsavat Partiyasının proporsional seçki üzrə vahid namizədlər siyahısında partiya daxili keçirilmiş praymerizə əsasən 15-ci sırada olmuşdur. |
| **2005-ci il** | Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, |
| **2014-cü il** | "Şərəf" ordeninə layiq görülmüşdür. |
| **2019-cu il 24 iyun** | Bakıda dünyasını dəyişib, İkinci Fəxri Xiyabanda dəfn olunub. |